AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU



# Hacıbaba Hüseynov ustad məktəbi yaratdı

Nə qədər qəribə olsa da, Azərbaycanın XX yüzilin son onilliklərindəki ən bilgin və bişkin muğam ustalarından olan Hacıbaba Hüseynov musiqimizin əsas məbədlərindən sayılan Müslüm Maqomayev adına Dövlət filarmoniyasının səhnəsinə ilk dəfə 1989-cu ildə - 70 yaşı tamam olarkən çıxdı. Layiq olduğu əsl şöhrətlərə və diqqətlərə də böyük sənətkar elə həmin yuvarlaq ildönümündən sonra çatdı. Qısa zaman içində əməkdar və xalq artisti fəxri adlarına layiq görüldü, ömründə Azərbaycandan qırağa çıxmamış sənətçi İranda, İraqda, Fransada konsertlər verdi, oxuları yazılmış disk dünyaya yayıldı, ona xarici məmləkətlərdən yeni-yeni dəvətlər gəlməyə başladı. 70-ində çoxları artıq sənətdən ayrılmış olur. Ömrün bu mərhələsində yetişdiyi (gecikmiş də olsa) ehtiram məqamı, isti münasibət Hacıbaba ustadı necə ruhlandırdısa, sanki onda idmançılardakı kimi ikinci nəfəs açıldı. Yeni şövqlə, yeni həvəslə, yeni ilhamlarla oxudu, o çağacan ifasında olmayan neçə yeni təsniflər yaratdı.

Aldığı təhsil vur-tut natamam ibtidai savad idi. Hələ dördüncü sinifdə oxuyanda məktəbi atmışdı. Lakin ilahi ona ömrünün sonuna qədər tükənməyən bir başqa sevgi bağışlamışdı - kitaba, dəyərli biliyə, şerə, ədəbiyyata, qəzəliyyata vurğunluq.

Bir qəzəlində belə misralar vardı:

Hələ də Hacı gedir dərsi-dəbistan oxuya,
Çalışıb hər oxuyan Molla Pənah olmaz imiş.

### Ömrünün axırınacan oxudu...

Həm avazla oxudu, həm kitab *oxudu.*

O, çox təvazökar bir insan olub. Sonacan özünü öyrənci sandı. Ona görə Böyük Öyrədən oldu. Azərbaycan muğamının bu gün üzdə olan üstün ifaçılarının hamısında araşdırsanız, diqqətlə izləsəniz Hacıbaba sənətindən soraq tapacaqsınız. Ən maraqlısı isə odur ki, özü məktəb görməmiş Hacıbaba ustad məktəb yaratmağa müvəffəq oldu.

Paxıllar, bədxahlar ona sataşırdılar, qəlbinə dəyirdilər. "Nağaraçıdan nə oxuyan?" - deyirdilər, "Onun oxuduqları dərviş havacatıdır" - söyləyirdilər.

Hacıbaba Hüseynov həqiqətən əvvəllər nağaraçı olub və bu, sonrakı xanəndəliyində, şairliyində dadına çox yetib. Əla qaval da çalıb. Amma nağaraçılıqdan qazandığı ən vacib üstünlük onun yüksək ritm sahibliyi idi. Bu üstün ritm duyğusunun gücünə bir-birindən melodik təsniflər yaradırdı və ritm baxımından üzdən sadə görünsə də, bu təsniflərdən elələri vardı ki, başqaları onu oxumaqda çox aciz idilər.

Ritm vaqifliyinin ona bağışladığı ikinci üstünlük əruzun bəhrlərindən, təfilələrindən xəbərsiz ola-ola elə həmin vəznlərin qulaq yaddaşındakı dəqiq əks-sədasına əsasən heyranedici şeirlər qələmə almasıydı.

Əruzşünas Əkrəm Cəfər "Hacıbabanın qəzəllərində, müxəmməslərində, müstəzadlarında bir zərrəcə əruz xətası yoxdur" inancındaydı.

Ruhani ailədə böyümüşdü, lap körpəlikdən əvəzsiz mərsiyəxanaları, dərvişləri dinləmişdi. Güclü yaddaşına uşaqlıq illərindən hopmuş həmin yandırıcı musiqilərin dini sözlərini bir qırağa qoyub nohələri, sinezənləri, mərsiyyələri öz qəzəlləriylə yeniləşən, diriləşən çağdaş təsniflərə çevirirdi.

### Hacıbaba üstüörtülü şəkildə dini təbliğ edirdi..

Heyiflər ki, Hacıbaba Hüseynovun ustad, böyük sənətkar kimi etiraf olunması, onun ikinci nəfəsinin açılması 70-indən sonrakı dövrünə düşdü. Daha tez etiraf olunsaydı, daha erkən layiq olduqları ondan əsirgənməsəydi, əlbəttə, ondan qalan irs indikindən də qat-qat zəngin olardı. Hər halda o səs daha heç vaxt təkrarlanmadığı kimi, unudulmayacaq da.

O səs daim bir zövq qaynağı olmaqdan savayı, həmişə dərslik, müntəxabat kimi umulacaq. Əldə etdiyimiz məlumata görə, arzusuydu ki, 75 illiyində "Çahargah" oxusun. Ancaq çox təəssüf ki, 75 yaşına çatmadı.

### Həyatı

O, Novruzun ətri duyulan vaxtda doğulmuşdu. Martın 15-də. Bakının indi izi-tozu da qalmayan qədim Çəmbərəkənd məhəlləsində. Taleyin gərdişindən cəmi beş sinif təhsil almış Hacıbaba Hüseynov klassik ədəbiyyata, əruza, ilahiyyata dərindən yiyələnməyi, dərin hissiyyata, güclü hafizəyə, qaynar təbə, yüksək hazırcavablığa, bədii-yaradıcı təxəyyül imkanlarına malik bir insan idi. Orası da maraqlıdı ki, tamam-kamal orta təhsili olmayan bu insan otuz ildən artıq müddətdə xanəndəlik sənətindən dərs deyib. Çox-çox görkəmli sənətkarlar yetişdirmiş, bir vaxtlar hamının dillər əzbəri olan Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində.

Həyat doğrudan da qəribəliklərlə doludu. Gözünü dünyaya açan gündən qulağı azan səsi, Quran avazı eşidən, ata nənəsinin arzusuna qalsa, din xadimi kimi yetişməli olan və bütün ömrünü Allah-taalaya etiqadda keçirən, vaxtlı-vaxtında orucunu tutub, namazını qılan Hacıbabanın vətəndən kənarda ilk səfər etdiyi şəhər məhz Kərbəladı. Hacıbaba Hüseynov İmam Hüseyn aşiqi, mövlanə Füzuli vurğunuydu. Söyləyirlər ki, ustad sənətkar həmin səfərdən çox-çox illər qabaq elə hey "bircə İmam Hüseynin qəbrini ziyarət eləyib, o müqəddəsin ayaqları altında yatan Füzuli babamla "görüşsəydim", heç dərdim olmazdı" deyirmiş. Demə, bu onun qismətindəymiş. Hələ üstəlik İraq səfərinin ardınca Türkiyə, Fransa, İsveçrə, Hollandiya, Belçika və İrana da yolu düşəcəkmiş xanəndənin. Bütün bunlar sənətkarın yetmişdən sonrakı həyatının üç ili ərzində baş verən idi. Daha sonrasa ilyarım qalırdı son səfərə. Və bu ilyarımda xanəndə artıq ayağını kənara atası halda deyildi. Amansız xərçəng öz işini görürdü. Cəmi bir-iki il əvvələcən pəhləvan cüssəli görünən Hacıbaba qəfil başının üstünü kəsdirmiş xəstəlik səbəbindən get-gedə yumağa dönür, şam kimi əriyir. 1992-ci ilin əvvəlində sənətkarın İranda verdiyi konsertlərdən birində lentə alınmış kadrlara diqqət yetirsək, sınıxmış Hacıbabanı görmək olar. Həmin kadrlarda tez-tez, bir-iki qurtum su alıb qurumuş dil-dodağını yaşlaması açıq-aydın görünür. Amma təsəlliverici məqam da var həmin kadrlarda. Onun oxuması həminki ləngəri, bəzək-düzəyi və pəsxan ustalığıyla yenə gözəl və təravətlidi. Heç elə bil, il üstünə il gəlmiyib, qarşındakı da tənəffüs yolundakı problemdən əziyyət çəkən Hacıbaba Hüseynov deyil. Və o da maraqlıdı ki, o, bu minvalla ömrünün axır günlərinəcən oxuyub. Hərçənd İrandan sonra onun güzarı daha heç bir ölkəyə düşmədi. Bəzi məlumatlarda o da bildirilir ki, həmin arada onun dövlət səviyyəli tədbirlərdə və radio-televiziyada çıxışı da olmayıb. Hacıbaba müəllimi son aylarda demək olar yalnız Bakı kəndlərindəki toylarda görə biliblər. O toylarda ki, xanəndə qırx ildən artıq çalıb-çağırmışdı, neçə-neçə ustadlar görmüşdü. Mütəllim Mütəllimovun, Yaqub Məmmədovun ifasına vurulmuşdu, Seyid Şuşinskinin tilsiminə düşmüşdü, Zülfü Adıgözəlovun yanğı və ustalığına, Xan Şuşinskinin təkrarsız şirin səsinə heyran qalmışdı. Bəzilərinin nəzərində təhsil ala bilmədiyindən savadsız sayılacaq Hacıbaba əslində istedadına və öyrəndiklərinə görə yaradandan sonra məhz bu toylara, adını çəkdiyimiz və çəkmədiyimiz sənətkarlara borclu idi. Bu böyük ustadın yetişməsində, milyonların sevimlisinə çevrilməsində Əhməd Bakıxanovun, Cahangir Cahangirovun, Bəhram Mansurovun, Əhsən Dadaşovun, Sara Qədimovanın və başqalarının əməyini qeyd etmək gərəkdi. Ümumiyyətlə, bəxt-tale sarıdan Hacıbaba Hüseynovunku gətirmişdi desək, yanılmarıq. Doğrudu, o, uşaqlıqdan böyük ailələrini saxlamaq üçün çiynini ağır yük altına vermişdi. Əvvəl-əvvəl pudluq daşlardan yapışmışdı və vaxtından qabaq böyüyüb, güclənib, kişiləşmişdi. Sonrasa "Paris kommunası" adına zavodda tornaçı işləmişdi. Həmin peşənin hesabına gənc, sağlam cüssəli xanəndə müharibə başlayanda cəbhəyə yollanmamışdı.



### 24 yaşında ailə qurub...

Hacıbaba Hüseynov iyirmi dörd yaşında, müharibənin qızğın çağında sevib-seçdiyi Mehparə xanımla ailə qurub. Bu ailənin təməli möhkəm, ömrü uzun olub. Atalı-analı bəxtəvər günləri xatırlayan sənətkarın qızı Sədaqət Hüseynova atasını belə xatırlayır: " Ağa (atasını nəzərdə tutur) ağırtaxta, zabitəli kişiydi. Bir sözü iki olmazdı, nə evdə, nə də kənarda. Xasiyyəti eləydi ki, hər adam evimizə ayaq basa bilməzdi. Söhbət sənət adamlarından gedir ha. Deyərdi ki, tam, dürüst insan, dost tapmaq çətindi. Bu dünya etibarsızlarla doludu. Təsəvvür edin, qoca vaxtında belə evimizə gələn tələbələrinin, sənət dostlarının qarşısına çay-çörəyi anam yox, mən qoyardım. Bazar-dükan və sair işlərdə nə mən, nə də anam çöl-bayır tanımamışıq. Heç orta məktəbi axıracan oxumağa da qoymadı ki, qız uşağı evdə otursa yaxşıdı. Sonra da tez ailə qurdum, bir sənət, peşə seçməyə vaxt tapmadım... Ölümdən qorxmurdu, hər an əcəlin yetişəcəyinə hazırıydı. Deyəndə ki, ay ağa, Allah eləməsin, sənə bir şey olsa, biz neylərik? Gülə-gülə qayıdırdı ki, necə yəni Allah eləməsin, elə o qurban olduğum eləyir də.Üstəlik, "hamı özünü fikirləşir, heç gör məni düşünən var" deməklə zarafatından qalmırdı. Ağanın üç yüzdən artıq qəzəli, müxəmməsi yadigardı. İndiyəcən bircəciyi belə çap olunmayıb. Amma onların xeylisi hələ sağlığındaykən xanəndələrin dillərinin əzbəriydi. Özü isə yazdıqlarını tək-tük halda oxuyurdu. Ağanın vəsiyyətinə əsasən əlyazmalarının hamısını Rafael Hüseynova vermişik. Çoxları inanmaz, ağa evdən kənarda gecələməyi sevmədiyindən rayonlardan toy sifarişi götürmürdü. Yalnız ildə bir-iki dəfə Salyana gedirdi. Orda onu məxsusi hörmətlə qarşılayan, sevənlər varıydı deyə, sözlərini yerə salmırdı. Ağa toya üçlüklə dörd yüz manata gedərdi. "Qara tellər" və Aşıq Alının "Nə qaldı?" mahnısını evdə elə gözəl oxuyardı ki, nə deyim. Qızım da babasının yolunu seçdi. Görünür, rəhmətliklərə, babasına və xalam Sara Qədimovaya çəkib..."

*(Davamı var)*

**"Şərq"in araşdırma qrupu**

**Məqalə Azərbaycan Respublikası Prezidenti yanında KİV-ə Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə hazırlanıb**